BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 Humanitar elmlər seriyası 2015

UOT 94(3)

1635-1659-CU İLLƏRDƏ FRANSANIN XARİCİ SİYASƏTİNƏ DAİR

Y.H.GÖZƏLOVA
Bakı Dövlət Universiteti
ygozalova@gmail.com

İsveçlə ittifaqı bərpa edən Fransa Otuzillik müharibənin bütün cəbhələrində mübarizəni fəallaşdırmaq üçün böyük diplomatik cəhdlər həyata keçirdi. 1635-ci ildə Fransa özü də müharibəyə qatıldı. 1635-1642-ci illərdə fransızlar Elzası ələ keçirdilər, Cənubi Niderlandda böyük uğurlar əldə etdilər.

1643-1645-ci illərdə Mazarini münaqişəyə son qoymaq üçün böyük fəallıq nümayiş etdirdi.

1648-ci ildə Fransa Avstriya Habsburqları ilə Vestfal sülhünü, 1659-cu ildə isə - İspaniya ilə Pireney sülhünü imzaladı.

Açar sözlər: diplomatya, müharibə, Fransa, Almaniya, İspaniya

Fransanın Otuzillik müharibəyə birbaşa qatılması təkcə hərbi və diplomatik baxımdan deyil, hüquqi və ideoloji nöqteyi-nəzərdən də hazırlanmışdı. Bu illərdə Fransada ilk qəzet – *«Gazette de Franse»* çıxmağa başlayır və o, fransız diplomatiyasının xidmətinə dayanır. Məhz həmin qəzetin səhifələrində kardinal Rişelyenin «Fransaya Lotaringiyanı və Varı birləşdirməyin ən doğru yolu» adlı pamfleti çap olunur. Pamfletdə deyilirdi: «İmperatorun Reyndən solda olan torpaqlara heç bir hüququ yoxdur, çünki bu çay 500 il ərzində Fransanın sərhədi olmuşdur. İmperatorun iddiaları uzurpasiyadır» (4, 247). Yenə həmin qəzetdə məşhur fransız publisisti Şantero-Lefevr yazırdı: «Qədim franklar Qalliyanı, yəni okeanla Aralıq dənizi arasında yrləşən və Reyn çayı ilə sərhədlənən geniş bir ərazini fəth etmişlər. Bu məkan tarixən belglərin, keltlərin və akvitanların Qalliyası kimi məlumdur» (4, 248). Başqa sözlə desək, Şantero-Lefevr Fransanın tərkibinə Elzası, Lotaringiyanı, Savoyyanı və Nitsanı daxil edir. Şanteronun fikrincə, Fransa bu torpaqları qaytara bilməsə, «Avropa yenə frank-qall taxt-tacına mənsub torpaqları ələ keçirmiş və xristian dövlətlərini köləyə çevirmək istəyən qüvvələrin ayaqları altında tapdalanacaq» (4, 248).

Müharibədə iştirakını «hüquqi» cəhətdən əsaslandıran kardinal Rişelye

konkret diplomatik addımlara – yeni antihabsburq koalisiyasının təşkili işinə başladı. Bununla bağlı qeyd etmək lazımdır ki, həmin ərəfədə Fransanın İspaniya ilə artıq hərbi əməliyyatları başlamışdı. Belə ki, hələ 1627-ci ildə Mantuya hersoqu II Vinçenso Qonzakanın vəfatı ilə «Mantuya vərəsəliyi» məsələsi ortaya çıxmışdı. Bu vərəsəlik Qonzakanın qohumu, fransız hersoqu Şarl de Neverə keçməli idi. İspaniya bu məsələdə Qonzakanın digər qohumu – Savoyya hersoqu olan və Fransa ilə düşmənçilik edən I Karl-Emmanuili dəstəklədi (7, 158). İmperator II Ferdinand da məsələyə qarışmalı oldu.

Düşmən tərəfləri barışdırmaq üçün Roma papası VIII Urban nunsi köməkçisi olan Culio Mazarinini hərbi əməliyyatlar rayonuna göndərdi. Gənc diplomat Rişelyeni və ispan generalı, Milandakı vitse-kral A.Spinolanı razılığa gəlməyə inandıra bildi. İlk dəfə Rişelye - Culio Mazarini görüşü belə baş verdi. 1630-cu il mayın 10-da Qrenoblda XIII Lüdovik və Rişelyenin iştirakı ilə keçirilən müşavirədə gələcək addımlar müzakirə olundu. Savoyya hersoqunun səfiri və həmin vaxt papanın leqatı olan Culio Mazarini təklif edirdilər ki, Fransa hersoq de Neverin Mantuya vərəsəliyinə olan iddialarını dəstəkləməkdən əl çəkməli, qoşunlarını Suza, Pinyerol və Kazaledən çıxarmalıdır (7, 158-159). Bunun əvəzində İspaniya və İmperiya öz qoşunlarını geri çəkməyi öhdələrinə götürürdülər.

Bu cür təklif fransız tərəfini qane edə bilməzdi, çünki bu, status-kvo demək olardı. Danışıqlar uğursuz nəticələndi və Mazariki Vyanaya qayıtdı. 1630-cu ilin yayında XIII Lüdovik və Rişelye yenidən sülh təklifi ilə çıxış etdilər. Mazariki kralın düşərgəsinə dəvət olundu və ona elan edildi ki, XIII Lüdovikin Şimali İtaliyada əsas məqsədi Mantuya hersoqunun hüquqlarını təmin etməkdir (1, 40), Vyana və Madrid bu hüquqları tanısa, Fransa öz qoşunlarını bu bölgədən çıxaracaq.

Sülh danışıqları alman şəhəri Regensburqda (Ratisbonn) başladı. Fransanı bu danışıqlarda Rişelyenin ən yaxın köməkçisi Josef ata və Brülar de Leon təmsil edirdi. Sentyabrın 8-də danışıq iştirakçıları oktyabradək atəşkəs elan etdilər. Lakin oktyabrın 15-də Rişelye hərbi əməliyyatları bərpa etmək əmri verdi. Oktyabrın 26-na doğru danışıqlar yenidən başladı. 1631-ci ildə Regensburq və 1632-ci ildə gizli Turin razılaşması bağlandı. Hər iki müqavilə Fransaya böyük xarici siyasi uğur gətirdi: hersoq de Neverin Mantuya və Monferrat üzərində hüquqları tanınırdı, Fransa isə Pinyerol və Peruza vadisi üzərində mülkiyyətini saxlayırdı (7, 159).

Bu hadisələrdə Culio Mazarini bir diplomat kimi çox bacarıqla fəaliyyət göstərdiyindən, həm XIII Lüdovik və Rişelye, həm də papa tərəfindən yüksək qiymətləndirilmişdi və 1634-cü ildə VIII Urban onu Fransa ilə İspaniya arasında növbəti toqquşmanın qarşısını almaq üçün Parisə nunsi təyin edir (3, 86).

Lakin kardinal Rişelye öz seçimini etmişdi və antihabsburq koalisiyasının təşkili ilə məşğul idi: 1635-ci ilin fevralında Fransa Hollandiya ilə müdafiə və qarşılıqlı hərbi yardım ittifaqı bağladı. İsveçin müharibədən çıxmasının qarşısını almaq üçün Rişelye onunla 1635-ci ilin aprelində Kompyen müqavilə-

sini bağlayır; müqaviləyə görə, İsveç imperatora qarşı Fransa ilə birgə hərbi əməliyyatlarda iştirak edəcəyini öhdəsinə götürürdü (7, 155). Kardinal, həmçinin, Şimali İtaliyada Savoyyanı və Parinanı öz tərəfinə çəkməklə antiispan koalisiyası yaratmağa cəhd göstərmişdi. İngiltərə neytrallığını saxlayacağını öhdəsinə götürürdü. Mantuya, Venesiya və Transilvaniya knyazlığı da Fransa İsveç ittifaqını dəstəklədi (5, 402).

Diplomatik hazırlıqdan sonra, 1635-ci il mayın 19-da Fransa İspaniyaya, daha sonra Müqəddəs Roma imperiyasına müharibə elan etdi.

Otuzillik müharibənin sonuncu, ən uzun çəkən mərhələsi elə bir şəraitdə gedirdi ki, tərəflərin insan və maddi ehtiyacları artıq tükənmişdi. Nəticədə bu mərhələ daha çox lokal, manevrli döyüşlərlə səciyyələnir.

İlk üç il Fransa üçün uğursuz olmuşdu. O, demək olar ki, bütün cəbhələrdə məğlubiyyətə uğrayırdı. 1636-cı ilin yayında İspaniya Niderlandının canişininin qoşunları hətta Parisə yaxınlaşmışdı. Bununla əlaqədar kardinal Rişelyenin sarayda əleyhdarları artır; ona qarşı bir neçə sui-qəsd (o cümlədən kraliça Avstraliyalı Annanın təşəbbüsü ilə) hazırlanır (6, 127). Vergilərin olmazın artması xalqın etirazlarına və iğtişaşlarına səbəb olur ki, onların da yatırılması üçün böyük hərbi qüvvə tələb olunurdu.

Kardinal Rişelye İspaniyanın daxilində baş verən gərginlikdən, o cümlədən, Kataloniyada və Portuqaliyada genişlənən xalq üsyanlarından öz məqsədləri üçün istifadə edə bildi. Belə ki, Fransa onların müstəqilliyini tanıdı (7, 155). Fransızların və katalonların birgə səyləri ilə ispanları Russilyondan qovmaq mümnkün oldu. Özünü Portuqaliya kralı elan etmiş IV Juan Fransa və Hollandiya ilə bağladığı müqavilələrə görə, 10 il müddətində ispan kralı IV Filiplə hər hansı razılığa girməyəcəyini öhdəsinə götürürdü (2, s.4). 1641-ci ilin iyulunda isə Brandenburq knyazı imperatorla münasibətləri qırdı və İsveçlə ittifaq bağladı (2, 4).

Artıq Fransa diplomatiyası uğurlar yoluna qədəm qoymuşdu, kardinal Rişelye isə bu diplomatiyanın əsas aparıcı qüvvəsi idi. Lakin 1642-ci ilin yayı Rişelye ağır xəstələndi, dekabrın 4-ü isə vəfat etdi. Vəfatı ərəfəsində kardinalın dediyi sözlər belə olmuşdu: «Mənim, dövlətin düşmənlərindən savayı, heç bir düşmənim olmayıb» (7, 156). Elə həmin gün XIII Lüdovik Culio Mazarinini yanına çağırıb, Rişelyenin vəziyyətinə uyğun olaraq onu Kral şurasının başçısı təyin etdi. 1643-ci ildə XIII Lüdovik azyaşlı olduğu üçün, kraliça Avstraliyalı Anna yeni kralın qəyyumu təyin olundu. Lakin ölkənin faktiki hakimi Mazarini idi.

Hələ 1642-ci ilin payızında imperator ordusunu darmadağın edən isveçlilər bütün Saksoniyanı ələ keçirdi və Moraviyaya daxil oldu. Fransızlar isə Elzası tutdular və Birləşmiş Əyalətlər Respublikasının qüvvələri ilə birgə Cənubi Niderlandda ispanlar üzərində bir neçə qələbə əldə etdilər. 1643-cü ildə Rokrua yaxınlığındakı döyüşdə ispan qoşunları ağır məğlubiyyətə uğradılar (5, 402).

Hakimiyyətə gələn Mazarini Habsburqlarla sülh bağlamağa tələsirdi, ona

görə də Fransada hesab edirdilər ki, kardinalın xarici siyasətini Roma kuriyası istiqamətləndirir (papa imperiyanın tam dağılmasını istəmirdi). Lakin kardinalın diplomatiyası imperiyanın xeyrinə yönəlməmişdi. Mazarini Rişelyenin kursunu davam etdirirdi və belə bir fikri tez-tez təkrarlayırdı ki, Almaniyada müharibə dini müharibədən çox, Avstriya evinin siyasi ambisiyalarına qarşı mübarizə idi (7, 162).

Digər tərəfdən, Fransanın müttəfiqləri cəbhəsində də vəziyyət mürəkkəbləşmişdi. Belə ki, İsveç və Danimarka arasındakı rəqabət 1643-1645-ci illərdə müharibəyə gətirib çıxardı. Mazarini bu münaqişənin ləğvi üçün çox böyük cəhdlər göstərməyə nail oldu. İsveç Yutlandiyanı ələ keçirib Zelandiyaya daxil oldu və Kopenhageni mühasirəyə aldı (5, 332). 1645-ci ildə Bromsebr sülhünə görə, İsveç Skandinaviya yarımadasının cənubunu, Norveçin bəzi şərq vilayətlərini (Emtland, Xeryedalen, Boxusland), Qotland, Ezel və Bornxolm adalarını ala bildi (5, 338).

Bromsebr sülhü ilə Baltikada öz mövqeyini möhkəmləndirən İsveç yenidən öz ordusunun Almaniyada fəaliyyətini bərpa etdirdi və 1646-cı ilin yazında Cənubi Çexiyadakı Yankovo adlı yerdə imperatorun və Bavariya knyazının qoşunlarını ağır məğlubiyyətə uğratdı; daha sonra o, Çexiya və Avstriya torpaqları üzərinə hücuma keçməklə Praqanı və Vyananı hədələməyə başladı (5, 403).

Yeni imperator III Ferdinand (1637-1657) artıq müharibəni uduzduğunu başa düşmüşdü. Hər iki tərəf sülh danışıqlarına meyl edirdi və bunun səbəbi bir tərəfdən, maliyyə çətinliyi idisə, digər tərəfdən, Almaniyada yadelli qoşunların özbaşınalığına və talanlarına qarşı genişlənən partizan hərəkatına bağlı idi. Konkret Fransaya gəlincə, iqtisadi, siyasi və sosial problemlər ucbatından, o, sülhə getməyə məcbur idi. Ölkədə Fronda – daxili siyasi böhran yetişirdi.

Hələ 1638-ci ildə papa və Danimarka kralı tərəfləri müharibəni dayandırmağa çağırmışdı. İki il sonra sülh danışıqları ideyası Regensburqda çağrılan reyxstaqda səsləndirildi. Sülhün konkret diplomatik hazırlığı isə xeyli uzandı. Yalnız 1644-cü ilin 4 dekabrında Münsterdə sülh konqresi başladı. Burada imperatorla Fransa arasında danışıqlar aparıldı; 1645-ci ildə isə Vestfaliyanın digər şəhəri Osnabryukda İsveç - İmperiya danışıqları ilə müşayiət olunan digər konqres çağrıldı.

Belə bir miqyasda beynəlxalq forum ilk dəfə çağrıldığından, prosedur məsələlərin həllinə də xeyli vaxt sərf olundu. Qərarların qəbulu həm də ona görə çətinləşirdi ki, diplomatların danışıqlar apardığı vaxtda ordular döyüşməkdə davam edirdi v hər bir yeni qələbəni konqres iştirakçıları öz iddialarını əsaslandırmaq üçün arqument olaraq gətirirdilər.

Danışıqlardı III Ferdinandın səfiri, çox bacarıqlı diplomat Trautmansdorfun bütün cəhdləri İsveçin iddialarını təmin etməklə onu Fransadan ayırmaq və imperiya üçün əlverişli şərait yaratmağa yönəlmişdi. Lakin İsveç kardinal Mazarininin idarə etdiyi fransız «çarxı»na möhmək bağlanmışdı (7, 163). Mazarini isə, əksinə, Brandenburq knyazını İsveçin Baltik dənizinin cənub

sahili ilə bağlı iddialarına qarşı çıxmaq üçün qızışdırırdı və bununla da İsveçi əlində saxlayırdı. Sülh müqaviləsinin qəti şərtləri Münsterdə 1648-ci il oktyabrın 24-də bağlandı.

Beləliklə, Çexiyada lokal bir münaqişədən başlayıb Şimali Almaniyaya adlayan və Mərkəzi Avropanın nəhəng məkanını əhatə edən Otuzillik müharibə öz orbitinə əksər dövlətləri qatdığından, ilk ümumavropa miqyaslı müharibə oldu. Vestfaliyanın yuxarıda qeyd olunan iki şəhərində imzalanan sülhün şərtlərinə görə, İsveç Ştettin limanı ilə birgə bütün Qərbi Pomeraniyanı və Şərqi Pomeraniyanın kiçik bir hissəsini, Rigen və Volin adalarını, həmçinin Pomeraniya körfəzi üzərində hüquqları qazanırdı. Pomeraniya hersoqları qismində İsveç kralları imperiya knyazlarına çevrilirdi və imperiyanın daxili işlərinə birbaşa müdaxilə etmək hüququ qazanırdı. İmperiya mülkləri olaraq Bremen və Ferden arxiyepiskopluqlarının müsadirə edilib dünyəviləşdirilmiş torpaqları da İsveçə keçirdi. İsveç, həmçinin böyük pul təzminatı alırdı. Şimali Almaniyanın iri çayları olan Vezer, Elba və Oderin mənsəbinə nəzarət İsveçə keçirdi. Böyük bir dövlətə çevrilən İsveç Baltika üzərində hakimiyyətini reallaşdırmış olurdu (1, 43; 5, 404).

Vestfal sülhünə görə, birləşmiş Əyalətlər Respublikasının müstəqilliyi tanınırdı. Sülhün tərkib hissəsi olan Münster müqaviləsinə görə, bu respub-likanın suverenliyi, ərazi çərçivəsi, Antverpenin statusu məsələləri həll edirdi (1, 43).

İsveçrə konfederasiyası da Vestfal sülhü ilə birbaşa tanış oldu. O, öz ərazisini xeyli genişləndirə də bildi (2, 9-10). Fransanın dəstəklədiyi Brandenburq knyazlığı, sülhə görə, Şərqi Pomeraniyanı, Maqdeburq arxiyepiskopluğunu, Qalberşton və Minden yepiskopluqlarını əldə edir və bununla da, Paris istəyinə nail olur: şimalda imperatora əks olan iri bir mülk yaradır. Bu knyazlığın Almaniyada nüfuzu kəskin şəkildə artır. Saksoniya Lujiski, Bavariya isə Yuxarı Pfalsı qazanır (1, 45; 5, 404).

Vestfal sülhü Almaniyanın siyasi pərakəndəliyini bir az da möhkəmləndirir. Alman knyazları öz aralarında ittifaq və xarici dövlətlərlə müqavilə bağlamaq hüququ qazanır, bu isə faktiki onların suverenliyini təsbit edirdi. İmperiya özü seçkili monarx və reyxstaq başda olmaqla formal dövlətlər birliyinə çevrilir.

Fransaya gəlincə, başlamış olan parlament frondası ilə əlaqədar o, danışıqları tez başa çatdırmağa çalışırdı və hətta kiçik ərazi qazancları ilə kifayətlənməyə də hazır idi. Vestfal sülhünə görə, Fransa Elzası (onun tərkibinə formal cəhətdən daxil olan Strasburqdan başqa), Zundqaunu və Xagenaunu alırdı, 100 ildən çox əlində olan Lotaringiyanın üç yepiskopluğu – Mets, Tul və Verden üzərində hüquqlarını təsdiqləyirdi. İmperiyanın 10 şəhəri Fransanın qəyyumluğuna keçirdi (5, 404; 1, 42; 7, 163). Bundan əlavə, Fransa İsveç ilə birgə Vestfal sülhünün təminatçısı elan olunurdu (7, 163).

Fransa diplomatiyası tarixinin əhəmiyyətli mərhələlərindən biri də Culio Mazarininin fəaliyyəti ilə bağlıdır. Əvvəlki paraqrafda biz Culio Mazarininin Otuzillik müharibənin sonuncu mərhələsində Fransanın xarici siyasətində

xidmətlərini nəzərdən keçirdik. Lakin Otuzillik müharibə, o cümlədən onun sonuncu mərhələsi daha çox Rişelyenin adına bağlıdır, baxmayaraq ki, Vestfal sülh müqavilələrinin hazırlanması və bağlanması onun vəfatından (1642-ci il) sonrakı dövrün hadisələridir. Mazarini isə Rişelyenin ən bacarıqlı davamçısı kimi Fransanın Avropa qitəsində xarici siyasi və diplomatik hegemonluğunun bərqərar olması işini tamamlamışdır.

Qeyd edək ki, Vestfal sülhündən sonra Fransanın xarici siyasətində iki əsas problem həllini gözləyirdi: İngiltərə ilə münasibətlərin normallaşdırılması və İspaniya ilə müharibə. İngilis-fransız ziddiyyətləri bu ərəfədə gərgin həddinə çatmışdı. Hələ kral I Karlın edamından əvvəl, 1648-ci ildə fransız hökuməti Fransaya ingilis yun və ipək məmulatlarının idxalını qadağan etmişdi (7, 163). Buna cavab olaraq ingilis hökuməti fransız şərabının idxalına qadağa qoymuşdu. Kardinal Mazarini bu məsələdə İngiltərədən güzəşt almağa çalışırdı. Lakin onun Londona göndərdiyi Krullenin missiyası uğursuzluğa düçar olur; bundan sonra hər iki ölkə arasında «gömrük müharibəsi» başlayır (7, 163).

Gərgin fəaliyyətdən sonra Mazarini və onun köməkçisi Kolber İngiltərə ilə normal diplomatik münasibətləri bərpa etməyə müyəssər olur. Digər tərəfdən, İngiltərədə baş verən hakimiyyət dəyişikliyi Mazarinidə İspaniyaya qarşı mübarizədə yeni müttəfiq tapacağına ümid yaradırdı. Kardinal başa düşürdü ki, İngiltərədə xarici siyasətə artıq parlament deyil, birbaşa Kromvel nəzarət edir; ona görə də Mazarini vasitəçilərin köməyilə məhz Kromvelə birbaşa danışıqlara girir. 1562-ci ilin dekabrında Pikardiyanın intendantı de Bordo Londona göndərilir. Uzun sürən danışıqlardan sonra, 1657-ci ildə Fransa ilə İngiltərə arasında hərbi ittifaq bağlanır (4, 262).

Mazarininin diplomatik uğurları içərisində, heç şübhəsiz, İspaniya ilə olan münasibətləri xüsusi qeyd etmək lazımdır. Hələ Otuzillik müharibə gedişində başlayan Fransa-İspaniya münaqişəsi yalnız 1659-cu ildə Pireney sülhünün bağlanması ilə başa çatır.

Pireney sülhünə görə, Fransanın ərazisi xeyli genişlənir, baxmayaraq ki, fransızlar hərbi əməliyyatlar gedişində ələ keçirdikləri Franş-Konteni, Kataloniyanın bəzi rayonlarını və Niderlanddakı qalaları İspaniyaya geri qaytarmalı olur. Fransaya isə Flandriyanın bir hissəsi (qalalarla birlikdə), Artua qraflığının böyük hissəsi və Russilyon qraflığı keçir. Yeni Fransa – İspaniya sərhəddi Pireneylərdən keçirdi. İspaniya fransızların əlində olan Elzasa və Breyzaxa iddialarından əl çəkirdi, XIV Lüdovikin Navarra krallığı üzərində hüquqlarını tanıyırdı. Mazarini İspaniya ilə müharibə şəraitində olan Portuqaliyaya yardım etməyəcəyini öhdəsinə götürürdü (7, 165).

Pireney sülhünün özünəməxsusluğu onda idi ki, müqavilə XIV Lüdovikin ispan infantası Mariya Tereziya ilə nigahını da nəzərdə tuturdu. Amma hiyləgər kardinal hər iki tərəfin bağladığı müqavilənin mətninə elə bir düzəliş eləmişdi ki, sonralar bu düzəliş Avropanın gələcək beynəlxalq münasibətlər tarixində böyük rol oynayacaqdı. İnfantanın cehizi – 500 min qızıl ekyü bir il

yarım ərzində ödənilməli idi, əks halda Mariya Tereziya ispan taxtına hüquqlarından əl çəkirdi. Mazarininin məqsədi aydın idi – İspaniya həmin vaxt müflis olmuşdu və qısa müddətdə bu qədər pulu ödəmək iqtidarında deyildi. Belə olan halda fransız diplomatiyası İspaniyanın daxili işlərinə – taxt-tac məsələsinə qarışmaq imkanı qazanırdı. Sonrakı hadisələr Mazarininin hesablamalarının doğruluğunu göstərdi.

İstər 1659-cu il Pireney sülhü, istərsə də İngiltərə ilə bağlanan 1655-ci il ticarət və 1658-ci il hərbi müqavilələr Fransanın qitədə siyasi hegemonluğunu təmin edirdi. 1658-ci ildə yaradılmış Reyn liqası isə fransızlara Almaniya və Avstriya işlərinə müdaxilə etmək imkanı verirdi.

Beləliklə, XVII əsrin ortalarına doğru Fransa Avropanın ən nümunəvi mütləq monarxiyası kimi, xarici siyasətində də eyni prinsiplərlə çıxış edirdi. Böhrandan çıxan ölkə kardinal Rişelye kimi bacarıqlı siyasi və dövlət xadimi və onun sadiq davamçısı Culio Mazirininin, eləcə də bir sıra diplomatların gərgin əməyi sayəsində effektli nəticələr əldə edə bildi. Almaniya, Avstriya və İspaniya kimi güclü rəqiblərini zəiflətməyə müyəssər olan Fransa, onunla hesablaşmayan hərbir rəqiblərini sıradan çıxarmışdı. Fransız sarayı Avropanın ən möhtəşəm sarayı idi; bütün Avropa monarxları fransız kralından ehtiyat edirdilər; fransız dili diplomatiyanın və beynəlxalq sənədlərin rəsmi dilinə çevrilmişdi.

Yeni dövrün astanasında Fransanın üstünlüyü mərhələsi başlayırdı.

ƏDƏBİYYAT

1. Bekir Sitki Baykal. Yeni zamanda Avrupa tarihi. II cilt. I Kitab. Otuz yıl savaşı devri. Ankara: 1988
2. Yeni zamanda Avrupa tarihi. Ankara: 1994
3. Ивонин Ю.Е. Императоры, короли, министры. Смоленск: 1998
4. История дипломатии (с древнейших времен до 1919 года). М.: 2005
5. История средних веков. Т.2. Раннее новое время. М.: 2000
6. Кнехт Р. Ришелье. Ростов на Дону: 1995
7. Мусский И.А. Сто великих дипломатов. М.: 2004

ЕЩЕ РАЗ О ВНЕШНЕЙ ПОЛИТИКЕ ФРАНЦИИ В 1635-1659 гг.

Е.Г.ГЕЗАЛОВА

РЕЗЮМЕ

Возобновив союз со Швецией, Франция предприняла дипломатические усилия для активизации борьбы на всех фронтах Тридцатилетней войны. В 1635 году Франция сама вступила в войну. В 1635-1642 гг. французы овладели Эльзасом, одержали ряд побед в Южных Нидерландах.

В 1643-1645 гг. Мазарини приложил немало усилий, добиваясь прекращения этого конфликта.

В 1648 году Франция заключила с Австрийскими Габсбургами Вестфальский мир, а в 1659 году – Пиренейский мир с Испанией.

Ключевые слова: дипломатия, война, Франция, Германия, Испания

FRANCE'S FOREIGN POLICY IN THE YEARS OF 1635-1959

Y.Q.GOZALOVA

SUMMARY

France was the leading country in Europe towards the middle of the seventeenth century. But it was a very tense relations with Germany and Spain. The war resulted in strained relations.

Key words: diplomacy, war, France, Germany, Spanish